**Dövlət Statistika Komitəsində Ümummilli lider Heydər Əliyevin 92-ci ildönümünə həsr olunmuş tədbir keçirilmişdir.**



Mayın 8-də Dövlət Statistika Komitəsində Ümummilli lider Heydər Əliyevin 92-ci ildönümünə həsr olunmuş tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə açan Dövlət Statistika Komitəsi sədrinin birinci müavini Həmid Bağırov ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrləri ilə bağlı ətraflı məlumat vermişdir. Sonra məruzə üçün söz Aparatın Məlumatların yayılması şöbəsinin müdiri Rafael Suleymanova verilmişdir. O, öz çıxışında bildirmişdir ki, mühüm iqtisadi və siyasi qərarları ilə yaddaşlarda iz qoymuş xalqımızın əbədi lideri, ömrünün 60 ildən çoxunu öz doğma xalqına, onun gələcək xoşbəxtliyinə sərf etmişdir. Onun əsas məqsədi, amalı müstəqil, azad və firavan Azərbaycan dövlətini qurmaq, dövlət müstəqilliyinin dönməz və əbədi olmasına nail olmaq idi.







Xalqımızın əbədi lideri, Yeni Azərbaycan Partiyasının yaradıcısı Heydər Əliyev təkcə XX əsrin deyil, ümumiyyətlə, Azərbaycan tarixinin yetirdiyi ən böyük, dahi şəxsiyyətdir. İstər çağdaş Azərbaycan tarixində, istərsə də xalqın yaddaşında Heydər Əliyevin adı müstəqil və suveren dövlətin banisi, dahi siyasətçi, misilsiz şəxsiyyət, cəsur insan, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi, ölkənin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının yaradıcısı və əbədiyaşarlıq hüququ qazanmış ən böyük vətəndaş - azərbaycanlı kimi əbədi həkk olunub və hər zaman dərin hörmətlə, ehtiramla anılacaqdır. Cənab Suleymanov Heydər Əliyev siyasi xəttinin möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirildiyini qeyd etmişdir.

Sonra Dövlət Statistika Komitəsinin əməkdaşları Kənd təsərrüfatı və ekologiya statistikası şöbəsinin müdiri Rəşad Bayramov, Qiymət statistikası şöbəsinin müdiri Elman

Qasımzadə, Əhali və gender statistikası şöbəsinin baş məsləhətçisi Zəbihə Əsgər Ulu öndərin Vətənimiz üçün gördüyü işlərlə bağlı məruzələrlə çıxış etmiş, görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycanda dövlətçilik ənənələrinin bərpa edilib zənginləşdirilməsi, möhkəmləndirilməsi, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, təhsil və elm sahəsində, eləcə də onun Azərbaycançılıq ideologiyasının inkişafında rolu haqqında misilsiz xidmətlərindən bəhs etmişlər.





Sonda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə 12 aprel - 3 may tarixlərində Komitənin əməkdaşlarının iştirakı ilə “Heydər Əliyev kuboku” uğrunda keçirilmiş mini futbol turnirində fərqlənərək finala çıxmış komandaların üzvləri hədiyyə və kubokla mükafatlandırılmışlar.

